# AZƏRBAYCAN MÜƏLLİMİ

TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR!
*Heydər ƏLİYEV*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**20 fevral 2009-cu il №07(8320)** Qəzet 1934-cü ildən çıxır. E-mail:azerb-muallimi@azdata.net **www.az-muallimi.com**


## B.M.Vahabzadənin xatirəsinin əbədiləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadənin xatirəsini əbədiləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** Bakı Şəhər İcra Hakimiyyəti Bakı şəhərində küçələrdən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini və Bəxtiyar Vahabzadənin yaşadığı binaya (İstiqlaliyyət küçəsi, 9) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**2.** Şəki Şəhər İcra Hakimiyyəti Şəki şəhərində küçələrdən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini və Şəki şəhərində Bəxtiyar Vahabzadənin büstünün ucaldılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. təhsil sistemində filologiya ixtisası üzrə təhsil alan tələbələr üçün Bəxtiyar Vahabzadə adına təqaüdün təsis edilməsini təmin etsin;

3.2. Şəki şəhərinin orta məktəblərindən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini təmin etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 fevral 2009-cu il*